# YENİ AZƏRBAYCAN

18 sentyabr 2025-ci il, cümə axşamı
№ 167 (6994)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Əbədi dostluq!




Bax səh. 2

Donald J. Trump
@realDonaldTrump

Such an Honor to have helped settle the War with Azerbaijan and Armenia and, at the same time, become friends with these two Great Leaders and Men, President Ilham Aliyev and Prime Minister Nikol Pashinyan. It will be an everlasting friendship for me but, more importantly, for the United States of America!



Bax səh. 2

## Azərbaycan - BƏƏ: Qardaşlıq, dostluq üzərində qurulan əlaqələr




Bax səh. 3

# Yüksəksəviyyəli münasibətlərin yeni səhifəsi

Bax səh. 4

## Regionun sabitlik və inkişaf xəritəsi: 3+3 modeli

Post-müharibə dövrünün reallıqları arasında münasibətlərin normallaşması, bölgədə yeni iqtisadi sistemin qurulması və əlaqələrin yeni müstəvidə formalaşdırılması kimi faktorlar da yer almaqdadır. Bu istiqamətdə illərdir ki, davam edən və özünün məntiqi nəticəsinə yaxınlaşan proses müsbət trayektoriyalı inkişaf xəttinə malikdir. Vaşinqton görüşü ilə yeni mərhələyə qədəm qoyan sülh prosesi özlüyündə Cənubi Qafqazın stabil və sabit ünvan kimi şöhrət qazanmasına, tanınmasına, qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapmasına yol açır. Bu isə həm də region ölkələri arasında əməkdaşlığa yeni bir ölçü qazandırır. Müharibədən ötən 5 ildə bütövlükdə region üçün yeni perspektivlər açılması istiqamətində mühüm addımlar atılır - Azərbaycanın yürütdüyü siyasətin hədəfi məhz buna yönəlib. Bizim əsas prioritetimiz Cənubi Qafqaz üçün yeni inkişaf tempi qazandırmaqdır. Azərbaycanın qətiyyəti və sülhpərvər mövqeyi ilə Cənubi Qafqaz dünyanın yeni iqtisadi münasibətlər sistemində özünəməxsus...

Bax səh. 5



## Görüş yeri dəyişməzdir: Bakının qlobal sülhyaratma missiyası bir daha təsdiqləndi

Bax səh. 3

## Köklərimizi yaşatmasaq, budaqlarımız solacaq...

Bax səh. 4

## Orta Dəhliz Azərbaycan, Qazaxıstan və Gürcüstanın investisiya potensialını artırır

Bax səh. 5

## BMT TŞ beynəlxalq təhlükəsizliyə töhfə vermir

Bax səh. 6

## Sülh sazişinə atılan güllə...

Dünya hazırda bəşər tarixinin ən mürəkkəb və ziddiyyətli mərhələlərindən birini yaşayır. Qlobal miqyasda iqlim kataklizmləri, silsilə təbii fəlakətlər, regional müharibələr, enerji və ərzaq böhranları, həmçinin geosiyasi qarşıdurmalar bəşəriyyətin gələcəyini ciddi sınaq qarşısında qoyur. Bir tərəfdən texnologiyanın sürətli inkişafı və insanlığın imkanlarının genişlənməsi müşahidə olunur, digər tərəfdən isə bu nailiyyətləri məhv edə biləcək dağıdıcı proseslər paralel şəkildə dərinləşir. Belə bir şəraitdə insanlığın xilasını təmin edə biləcək yeganə dəyər - sülh dünya üçün ən vacib amilə çevrilir. Sülh təkcə müharibənin yoxluğu deyil, həm də dayanıqlı inkişafın, xalqların bir-birinə etimadının, dövlətlərin ədalətə əsaslanan münasibətlərinin təminatıdır. Əks halda, kataklizmlərin baş alıb getdiyi indiki dövrdə bəşəriyyətin gələcəyi təhdid altında qalır. Bu gün dünyanın istənilən nöqtəsində baş verən fəlakət və ya münaqişə yalnız bir regionu deyil, bütün planetin sabitliyini sarsıdır. Deməli, bəşəriyyətin yaşaması, inkişafı və gələcək nəsillərə sağlam dünya ötürülməsi...

Bax səh. 6

## Ağrı dağının təsviri möhürlərdən niyə çıxarılıb?



Bax səh. 7

## Dünya ölkələri yeni qlobal böhranın astanasında



Bax səh. 7




# Azərbaycan idmanının tarixi zəfəri!

## İlham Əliyev “Qarabağ” klubunu Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması münasibətilə təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev “Qarabağ” futbol klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımı təqdim edirik:

“Qitənin ən nüfuzlu klub turnirində - Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması münasibətilə Ağdamın “Qarabağ” futbol klubunu ürəkdən təbrik edirəm. Bu, Azərbaycan futbolunun, Azərbaycan idmanının tarixi zəfəridir.

“Qarabağ”ın Avropanın köklü klublarından biri olan “Benfika” ilə səfər matçında oyunun gedişində möhtəşəm geridönüş edərək parlaq qələbə çalması onun məğlubedilməz ruhunu, mübarizə əzmini göstərir.

Bu qələbə ilə doğma komandamız Azərbaycan xalqına böyük sevinc bəxş etmişdir. Hər bir azərbaycanlı Avropada xariqələr yaradan “Qarabağ”la qürur duyur.

Komandamıza Çempionlar Liqasının növbəti oyunlarında uğurlar və yeni-yeni zəfərlər arzu edirəm”.

## Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



2025-ci ildə Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri və ilk Baş naziri Fətəli xan İsgəndər xan oğlu Xoyskinin 150 illiyi tamam olur.

Fətəli xan Xoyski XX əsrin əvvəllərindən milli-mədəni intibahını yaşayan Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti naminə hərəkatda üzərinə götürdüyü çətin vəzifəni şərəflə yerinə yetirmiş fədakar ziyalılar nəslinin parlaq nümayəndəsidir. Geniş dünyagörüşlü, cəsarətli, vətənpərvər şəxsiyyət və böyük siyasi xadim kimi o, daim Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön cərgələrində mövqe tutmuş, tarixi İstiqlal Bəyannaməsini imzalayanlardan biri olmuşdur.

Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumət kabinetləri Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarını atdığı vaxtdan etibarən demokratik dövlət idarəçiliyinin təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və hərbi quruculuq sahələrində mühüm nailiyyətlər qazanmış, Azərbaycanın müstəqilliyinin xarici dövlətlər tərəfindən tanınması və diplomatik münasibətlərinin yaradılması işinə layiqli töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın görkəmli siyasi və dövlət xadimi Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Fətəli xan Xoyskinin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 sentyabr 2025-ci il*

# Əbədi dostluq!

## Donald Tramp Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əbədi dostluğun və formalaşmaqda olan strateji tərəfdaşlığın memarıdır

Azərbaycan qlobal siyasi mühitdə etibarlı tərəfdaş, proqnozlaşdırıla bilən dövlət və regional sabitliyin əsas dayaqlarından biri kimi tanınmaqdadır. İqtisadi potensialın ardıcıl şəkildə gücləndirilməsi, enerji layihələrinin uğurla icrası, nəqliyyat-kommunikasiya dəhlizlərində aparıcı rolun qazanılması və ən əsası, müstəqil siyasi kursun qorunması Bakıya beynəlxalq aləmdə xüsusi nüfuz qazandırıb. Azərbaycanın diplomatiyası artıq yalnız regionun deyil, bütövlükdə Avrasiyanın inkişaf və təhlükəsizlik gündəliyində mühüm amil kimi qəbul olunur. Elə buna görədir ki, Azərbaycanla əməkdaşlıq təkcə qonşu dövlətlər üçün deyil, həm də qlobal güclər üçün prioritetə çevrilib. Bu mənada Çin, ABŞ və digər böyük ölkələrin, eləcə də təşkilatların Bakı ilə daha isti münasibət qurmaq istəyi bütün konturlar üzrə açıq şəkildə görünür.

Vurğulandığı kimi, bu kontekstdə ABŞ - Azərbaycan əlaqələri də diqqəti cəlb edir - xüsusilə, Donald Trampın prezident seçilməsi ilə münasibətlərdə yeni mərhələ başlanıb. Tramp administrasiyası Vaşinqtonun Bakı ilə münasibətlərini gücləndirmək, Azərbaycanı etibarlı iqtisadi və siyasi tərəfdaş kimi ön plana çıxarmaq niyyətini açıq şəkildə ifadə edib. Bu isə həm regional sabitlik, həm də strateji enerji və təhlükəsizlik maraqları baxımından iki ölkə arasında əməkdaşlığın yeni perspektivlərini gündəmə gətirir.

## Strateji əməkdaşlıq xətti...

Donald Trampın prezident seçilməsi ilə Vaşinqtonun xarici siyasət prioritetlərində yeni düzən formalaşarkən Azərbaycan mühüm tərəfdaş kimi gündəmə gəldi. ABŞ üçün həm enerji təhlükəsizliyi, həm də Yaxın və Orta Şərq, Cənubi Qafqaz - Mərkəzi Asiya geostrateji coğrafiyasının yeni inkişaf mərhələsinə qədəm qoyması, sabitliyin və təhlükəsizliyin təmini, kataklizmlərin aradan qaldırılması üçün müstəqil, ədalətli vasitəçi kimi Azərbaycanın rolu əvəzolunmazdır. Tramp administrasiyası Bakı ilə əlaqələrin daha da inkişaf etdirilməsində, dostluq və əməkdaşlıq səviyyəsində davamlılığının təmin edilməsində maraqlı olduğunu hər zaman bəyan edib.

Azərbaycan da öz növbəsində ABŞ-la əməkdaşlığı yalnız enerji sahəsi ilə məhdudlaşdırmır. İnvestisiya, nəqliyyat dəhlizləri, informasiya texnologiyaları və regional təhlükəsizlik istiqamətlərində geniş əməkdaşlıq platforması mövcuddur. Bu əməkdaşlığın güclənməsi həm də regionda sabitliyin möhkəmlənməsinə, Cənubi Qafqazın beynəlxalq inteqrasiyasına yeni təkan verə bilər. Xüsusilə bölgədə sülhün və sabitliyin təmini istiqamətində aparılan fəaliyyət Bakı-Vaşinqton əlaqələrinə mühüm bir rəng qatıb - Bakının yeni iqtisadi düzənin ən vacib layihələrindən biri sayılan Zəngəzur dəhlizinin (TRİPP) açılması ilə bağlı səyləri bütün dünya, eyni zamanda Vaşinqton tərəfindən yüksək dəyərləndirildi. Təsadüfi deyildi ki, avqustun 8-də Vaşinqtonda imzalanan üçtərəfli Birgə Bəyannamə Zəngəzur dəhlizinin (TRİPP) açılışı üçün vacib bir addım kimi yadda qaldı. Bu gün Vaşinqton-Bakı münasibətlərində artan müsbət ştrixlər həm regional, həm də qlobal inkişafın aparıcı elementlərindən sayılır. Prezident Trampın ötən 9 ay ərzində dəfələrlə Bakıya müsbət xarakter mesajları özündə əks etdirən məktublar yollaması, sosial şəbəkələrdə paylaşımlar etməsi və Azərbaycan Prezidentini “BÖYÜK LİDER” adlandırması bu dostluğun əsl sübutudur.




## ABŞ Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır...

ABŞ-ın Azərbaycanla son dövrlərdə daha yüksək temp qazanan əməkdaşlıq əlaqələri növbəti dəfə özünü təcəssüm etdirir - Vaşinqton ilə Bakı arasında müxtəlif sahələr üzrə yaxın əməkdaşlıq yüksək dəyərləndirilir. Qarşılıqlı etimad və maraqlar əsasında qurulan Azərbaycan-ABŞ əlaqələri hər iki tərəfin mənafeyinə cavab verməklə yanaşı, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına, iqtisadi əlaqələrin yeni inteqrasiya xətti qazanmasına da töhfədir. Dünyada gedən bir sıra siyasi proseslər, müxtəlif ölkələr daxilində yaranan gərginlik, beynəlxalq cinayətkar qruplaşmaların, terrorçu təşkilatların fəaliyyətini genişləndirməsi hər iki dövlətin təhlükəsizlik sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığının əhəmiyyətini dəfələrlə artırıb. Paralel olaraq Azərbaycanın yürütdüyü enerji siyasəti son 30 ildə nəinki regionun, daha böyük coğrafiyanın mənzərəsini və enerji xəritəsini dəyişib. Bakı-Tbilisi - Ceyhan, Bakı-Tbilisi-Ərzurum enerji xətləri kimi qlobal layihələrin ərsəyə gəlməsi, bu layihələrin daha geniş əməkdaşlıqlara meydan açması, yeni mərhələlər formalaşdırması göz önündədir - bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində əsaslı rol oynayır, Şimal-Cənub, Şərq - Qərb enerji tranzitinin mühüm logistik mərkəzlərindən sayılır.

Azərbaycan ötən müddət ərzində enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş kimi özünü təsdiqləyib: yeni neft-qaz strategiyasında enerji nəqli marşrutlarının şaxələndirilməsini əsas prioritetlərdən biri kimi müəyyənləşdirən ölkəmiz bu gün regional və qlobal enerji təhlükəsizliyinə mühüm töhfələr verir. Prezident İlham Əliyev məktubunda bildirib ki, enerji sahəsindəki əhəmiyyətli əməkdaşlığımız məmnunluq doğurur. Birləşmiş Ştatlar Azərbaycanın enerji strategiyasını bütün mərhələlərdə qətiyyətlə və davamlı şəkildə dəstəkləyib. Bu isə səslənən “əbədi dostluq” tezisinin xarakterini ortaya qoyur. Bir məqamı da vurğulamaq lazımdır ki, Donald Tramp özünün birinci dövlət başçısı olduğu dönəmdə də iki ölkə arasında işgüzar tərəfdaşlığa əsaslanan münasibət olub. Bu dövrdə Tramp administrasiyası Azərbaycanla bağlı müsbət mövqe sərgiləyib və tərəfdaşlıq əlaqələrini daim vurğulayıb. Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə mütəmadi olaraq təbrik məktubları göndərib. 2017, 2018, 2019 və 2020-ci illərdə göndərilən məktublarda Tramp Azərbaycanın enerji təhlükəsizliyinə verdiyi töhfələri və beynəlxalq təhlükəsizlik sahəsində əməkdaşlığını yüksək qiymətləndirib. Tramp administrasiyası Azərbaycanın Cənub Qaz Dəhlizi layihəsindəki rolunu dəstəkləyib. 2018-ci ildə Prezident Tramp Bakıya ünvanladığı məktubda Azərbaycanın enerji sahəsindəki rolunun vacibliyini qeyd edərək, iki ölkə arasındakı əməkdaşlığın gücləndirilməsini dəstəklədiyini bildirib. 2019-cu ildə ABŞ Dövlət Departamentinin rəsmiləri Azərbaycanın iqtisadi inkişaf istiqamətində atdığı addımları dəstəklədiklərini bildiriblər. 44 günlük müharibə dövründə Tramp administrasiyası Ermənistanı dəstəkləməyib və hər zaman olduğu kimi ölkəmizin ərazi bütövlüyünü tanıyıb - birmənalı şəkildə həmin dövrdə ABŞ-Azərbaycan münasibətləri strateji əməkdaşlıq xəttində inkişaf edib.

Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp “Truth” sosial şəbəkəsində Azərbaycanla bağlı növbəti paylaşım edib. Özünün Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanla birgə fotosunu paylaşan Tramp “Azərbaycan və Ermənistan arasında müharibənin həllinə kömək etmək, eyni zamanda bu iki böyük lider Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanla dost olmaq şərəfdir. Bu mənim üçün, amma daha da önəmlisi Amerika Birləşmiş Ştatları üçün əbədi dostluq olacaq”, - deyə yazıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa “TruthSocial” hesabında paylaşımına görə təşəkkür edib. Dövlətimizin başçısı bu barədə X sosial şəbəkə hesabında yazıb. “Prezident Donald Tramp, təşəkkür edirəm, “TruthSocial” hesabınızda paylaşdığınız xoş sözlərinizə görə minnətdaram. Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəlilədilməsində və tarixi Vaşinqton sammitinə ev sahibliyi etməyinizdə oynadığınız mühüm rolu yüksək qiymətləndirirəm”, - deyə Prezident İlham Əliyev qeyd edib.

Dövlətimizin başçısı vurğulayıb ki, Donald Tramp Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əbədi dostluğun və formalaşmaqda olan strateji tərəfdaşlığın memarıdır. “Dostluğumuza böyük önəm verirəm”, - deyə Azərbaycan Prezidenti əlavə edib.





## Bakı-Vaşinqton münasibətlərində yeni mərhələ...

Göründüyü kimi, Bakının bütün sahələrdə nümayiş etdirdiyi mövqe ABŞ tərəfindən yüksək səviyyədə qarşılanmaqdadır. Prezident Trampın paylaşımında qeyd etdiyi “Amerika Birləşmiş Ştatları üçün əbədi dostluq” mahiyyəti bunu təsdiqləyir. Yeni nizamın astanasında qlobal mühitin əsas və strateji iqtisadi-siyasi regionlarından sayılan Cənubi Qafqazın lider ölkəsi ilə dostluq arzusu Vaşinqtonun Bakı ilə münasibətləri yeni mərhələyə daşıma istəyindən xəbər verir - indiki dövrdə yaranan mühüm perspektivlər isə göz önündədir. Vaşinqton görüşünün ardından bölgənin gələcək perspektivi ilə bağlı təsdiqlənən mahiyyəti göz önünə gətirsək:

- Azərbaycanın apardığı siyasət müasir qlobal iqtisadi münasibətlər sistemində mühüm yeniliklər vəd edir ki, bu da ABŞ-ın diqqətini ən yüksək səviyyədə cəlb edib;
- Ölkəmizin beynəlxalq terrorizmə qarşı mübarizədə ortaya qoyduğu qətiyyətli davranış unudulmayıb - Prezident Tramp bu istiqamətdə ardıcıl siyasət yürüdür və ABŞ Azərbaycanı vacib tərəfdaşı qismində görür;
- Enerji və iqtisadi mövzularda tutulan mövqe yüksək dəyərləndirilir. Azərbaycanın qlobal məkanda enerji təminatçısı kimi artan rolu Vaşinqtonun gözündən yayınmayıb;
- Nəhayət, qarşıdakı perspektivdə imzalanacaq sülh yeni iqtisadi mühitin oturuşmasına yaxından kömək edəcək. Zəngəzur dəhlizinin (TRİPP) açılması isə Şərq-Qərb, Şimal-Cənub əlaqələrinin güclənməsində vacib bir şərtə çevriləcək.

*Pərviz SADAYOĞLU*

# Azərbaycan - BƏƏ: Qardaşlıq, dostluq üzərində qurulan əlaqələr

Tarixdən gələn ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunmasına böyük önəm verən Azərbaycan özünü İslam dünyasının ayrılmaz hissəsi hesab edir. Təsadüfi deyildir ki, ölkəmizin milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursunda prioritet istiqamətlərdən birini böyük İslam coğrafiyasına aid ölkələrlə, o cümlədən də ərəb dövlətləri ilə əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi təşkil edir. Respublikamız Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verir. Buna görə də İslam coğrafiyasında yerləşən dövlətlər Azərbaycana böyük rəğbətlə yanaşırlar. Qısa müstəqillik tarixində ölkəmizin əksər İslam dövlətləri ilə qarşılıqlı maraqlar əsasında yüksək səviyyəli münasibətlər qurmağa nail olması bunun əyani təsdiqidir.

Özünün siyasi çəkisi, əhali sayı, resursları və geniş maliyyə imkanları ilə ərəb dünyasının önəmli dövlətlərindən olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) də respublikamızın sıx tərəfdaşlıq münasibətləri qurduğu ölkələr sırasında yer alır. Xüsusilə də son illərdə iki ölkə arasında tarixi zəminə əsaslanan əməkdaşlıq əlaqələri daha da intensivləşib. Elə bugünlərdə BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan növbəti dəfə ölkəmizdə rəsmi səfərdə olub. Prezident İlham Əliyev sentyabrın 16-da Şuşada Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşdə ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğuna diqqət çəkərək vurğulayıb: “Bizim əlaqələrimiz qardaşlıq, dostluq üzərində qurulub”.








## İki dost ölkə arasında siyasi dialoq çox uğurla inkişaf edir

Şübhə yoxdur ki, bəhs olunan səfər ikitərəfli münasibətlərə güclü təkan verəcək. Əlamətdar haldır ki, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan bu dəfə respublikamıza səfərini paytaxt Bakıya deyil, işğaldan azad olunmuş ərazilərə - azad Qarabağa edib. Bu, dost ölkənin dövlət başçısının 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığı tarixi qələbələrlə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş Azərbaycana xüsusi jestidir və böyük məmnunluq doğurur. Məlumdur ki, bəzi dövlətlər, ayrı-ayrı təsisatlar hələ də Azərbaycanın tarixi zəfərlərini sinirə bilmir və bunu siyasi manipulyasiya predmetinə çevirməyə çalışırlar. Ancaq İslamafob, Azərbaycanafob dairələrin qatarı çoxdan gedib. Bir qədər bundan əvvəl Vaşinqtonda, Ağ Evdə, dünyanın bir nömrəli ofisində Donald Trampın şahidliyi ilə əldə olunan razılaşmalar ondan xəbər verir ki, beynəlxalq birlik Azərbaycanın ədalətli mövqeyini və sülh gündəliyini bütünlüklə qəbul edir. Yeri gəlmişkən, cari ilin iyul ayında BƏƏ-nin ev sahibliyi ilə Abu-Dabidə Azərbaycan və Ermənistan liderlərinin görüşünün baş tutması süllhyaratma prosesində irəliyə doğru atılmış mühüm addım kimi dəyərləndirilir. Dost BƏƏ-də aparılan müzakirələr Vaşinqtonda daha da inkişaf etdirlmiş və yekun sülh sazişi paraflanmışdır. Abu-Dabi görüşünün ardından Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın azad Qarabağa səfərə gəlməsi iki ölkə arasında qarşılıqlı etimadın nə qədər yüksək olduğuna dəlalət edir. “Bu gün imzalanmış çoxsaylı sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq. İmzalanmış hər bir sənəd böyük əhəmiyyət daşıyır. Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir. Bizim siyasi əlaqələrimiz çox uğurla inkişaf edir”, - deyə dövlətimizin başçısı vurğulayıb.

## Liderlərin səmimi münasibətləri

Azərbaycan ilə BƏƏ arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. Diplomatik əlaqələrin inkişafı, iki ölkə arasında münasibətlərin dostluq zəminində yüksək trayektoriya qazanması 1993-cü ildə böyük siyasətçi Heydər Əliyevin hakimiyyətə qayıdışından sonraya təsadüf edir. Qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əlaqələri hər zaman yüksək səviyyəsi, dialoq mühitində inkişaf tempi ilə diqqət çəkib.

Bu gün Azərbaycanla BƏƏ arasında siyasi dialoqun yüksək dinamizmindən bəhs edərkən burada liderlər arasında formalaşan xoş münasibətlərin rolunu ayrıca vurğulamaq lazım gəlir. Prezident İlham Əliyev Şuşada baş tutan geniştərkibli görüşdə bu məqama xüsusi diqqət çəkib. Bildirildiyi kimi, liderlər həm Azərbaycanda, həm də BƏƏ-də tez-tez görüşürlər. Bu görüşlərdə bir qayda olaraq yeni qlobal çağırışlar, regional məsələlər ətrafında önəmli müzakirələr aparılır və birgə fəaliyyət istiqamətləri müəyyənləşdirilir.

Liderlərin qarşılıqlı səfərləri də intensivləşib. Xatırladaq ki, Prezident İlham Əliyev 2006-cı il noyabrın 20-21-də Birləşmiş Ərəb Əmirliklərinə ilk rəsmi səfərini reallaşdırıb. Bu səfər iki ölkə arasında əlaqələrin inkişafına təkan verib.

Dövlətimizin başçısının BƏƏ-yə növbəti səfəri bundan 10 il sonra - 2016-cı ilin fevral ayında reallaşıb. Azərbaycan Prezidentinin 2023-cü ilin sonlarında BƏƏ-nin ev sahibliyi etdiyi Əbu-Dabi Davamlılıq Həftəsinə dəvət edilməsi və bu tədbirdə yüksək səviyyədə iştirakı ikitərəfli siyasi dialoqun daha da möhkəmlənməsinə mühüm töhfə verib. Qeyd edək ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi barədə qərar da məhz BƏƏ-də bəhs olunan səfər çərçivəsində qəbul edilib. BƏƏ-dən estafeti götürən Azərbaycan 2024-cü ilin noyabr ayında COP29-a yüksək səviyyədə ev sahibliyi etdi və Bakıda qlobal iqlim əməkdaşlığı üzrə bir sıra mühüm razılaşmalar əldə olundu.

Eyni zamanda, BƏƏ-nin yüksəksəviyyəli rəsmiləri də vaxtaşırı ölkəmizə səfərlərə gəlirlər. Görüşdə belə təmasların davamlı olacağının anonsu edilib. “Bugünkü görüşümüz bizim bu il ərzində üçüncü görüşümüzdür. Həqiqətən bizim bu ilin iyul ayında Əbu-Dabidəki görüşümüz çox səmərəli və ikitərəfli əməkdaşlığımızın yeni mərhələsinin əsası oldu. İnşallah, ikitərəfli əməkdaşlığımız və əlaqələrimiz, dostluğa, xeyir-bərəkətə əsaslanan münasibətlərimiz ölkələrimizin və xalqlarımızın rifahının daha da artması istiqamətində davam edəcəkdir”, - deyə dost ölkənin dövlət başçısı vurğulayıb.

## Beynəlxalq platformalarda qarşılıqlı dəstək

Hazırda dünyanın reallıqları elədir ki, dost ölkələrin beynəlxalq səviyyədə fəaliyyətlərini əlaqələndirmələrinə böyük zərurət var. Bu baxımdan Azərbaycanla BƏƏ arasında formalaşan ənənələr təqdirəlayiqdir. Prezident İlham Əliyev məmnunluq hissi ilə bildirib ki, biz hər zaman beynəlxalq təşkilatlarda bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik.

İki dost ölkənin BMT və İslam coğrafiyasına aid olan ölkələri birləşdirən təsisatlarda əməkdaşlığı xüsusilə diqqət çəkir. Dost ölkə hər zaman beynəlxalq təsisatlarda Azərbaycanın ərazi bütövlüyünə dəstəyini ifadə edib. Yuxarıda bəhs etdiyimiz Abu-Dabi görüşünə məmnuniyyətlə ev sahibliyi edən BƏƏ bir daha təsdiqlədi ki. Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesinə töhfə verməyə hazırdır. Ölkəsinin mövqeyini bir daha nəzərə çatdıran Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan “Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsinin imzalanması istiqamətində əldə edilmiş nailiyyətlərin və müsbət inkişafın davam etməsini səbirsizliklə gözləyirik. Bu münasibətlər Birləşmiş Ərəb Əmirlikləri dövlətinin regionda sülhün və əmin-amanlığın bərqərar olmasına, buradakı xalqların sülh şəraitində yaşamasına hər cür dəstək verməyə hazır olduğunu bir daha vurğulayırıq”,- deyə bildirib.

***Mübariz ABDULLAYEV***

# Görüş yeri dəyişməzdir: Bakının qlobal sülhyaratma missiyası bir daha təsdiqləndi

## Dəməşq ilə Təl-Əviv növbəti dəfə masa arxasında...

Azərbaycan beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdədir. Dünyada sivilizasiyalararası qarşıdurmaların, müxtəlif humanitar böhranların, dini və milli-etnik müstəvidə kataklizmlərin yaşandığı bir şəraitdə Azərbaycan həm sivilizasiyalararası dialoqun təşviqi və inkişafına mühüm töhfələr verir, həm də sabitliyi, sülhpərvər və tərəqqipərvər mövqeyi ilə nümunə kimi çıxış edir. Ölkəmizin timsalında “sülhün analoqu yoxdur” tezisi özünün əsl mahiyyətinə qovuşur. Azərbaycan təcrübəsi onu deməyə əsas verir ki, Bakı bütün anlaşmazlıqların, hətta tarixi düşmənçiliyin belə danışıqlar, ikitərəfli formata malik təmaslar vasitəsilə həllinin mümkünlüyünü faktoloji şəkildə ortaya qoyur. Konfrantasiyaların dialoqla, düşmənçiliyin uzlaşma ilə, fikir ayrılığının milli maraqlar çərçivəsində əməkdaşlıqla əvəzlənməsi Azərbaycan təcrübəsində olduqca vacib məqam kimi ortaya qoyulur. Bu kimi perspektivə, sabitliyə və sosial rifaha əsaslanan cəmiyyətin qurulmasına hədəflənən siyasi xətt birmənalı şəkildə dünya xalqlarına yeni dəyərlər kimi təqdim olunur.

Bakının xüsusilə Yaxın və Orta Şərq regionundakı konfrantasiyaların həlli prosesində nümayiş etdirdiyi uğurlu vasitəçilik missiyası bütün dünya tərəfindən təqdir olunur. Azərbaycan bu missiyanı yerinə yetirərkən ədalətin və beynəlxalq hüququn tərəfdarı kimi çıxış edir -səmimi sülhün yaranması üçün vasitəçi rolda olan dövlət və ya təşkilatların prosesə aydın, birtərəfli olmayan, ümumi mənaeyə əsaslanan yanaşması mütləqdir. Azərbaycanın Yaxın Şərqə münasibətdə tutduğu mövqe də məhz bu parametrlərə əsaslanır. Azərbaycan İsrail -Suriya münasibətlərində yeni mərhələnin başlanması, prosesin dialoq müstəvisndə inkişaf üçün vacib bir fəaliyyət ortaya qoymaqdadır.

## Növbəti görüş...

Qeyd edək ki, xarici KİV-lər İsrail ilə Suriya arasında növbəti görüşün keçiriləcəyi ilə bağlı anons yayıb. Düzdür, görüşün keçirilmə tarixi ilə bağlı dəqiqlik ifadə edilməsə də, masa arxasında ənənəvi stabilləşmə məsələsinin müzakirə olunacağı bildirilir. “Sky News Arabia” mənbələrə istinadən sentyabrın 18-də Bakıda iki ölkə arasında görüşün baş tutacağını bildirib. Qeyd olunub ki, danışıqlarda ABŞ-ın xüsusi elçisi Tom Barrak da iştirak edəcək. Toplantı bu formatda üçüncü üçtərəfli görüş olacaq.

Bu görüşün gələn həftənin cümə axşamı baştutma ehtimalı da irəli sürülür - ABŞ-ın “Axios” nəşri xəbər verib ki, İsrail Suriyaya yeni təhlükəsizlik sazişi layihəsi təqdim edib. Layihədə Dəməşqdən İsrail sərhədinədək cənub-qərb istiqamətində xüsusi bölgülər nəzərdə tutulub.

İki mənbənin bildirdiyinə görə, bu plan İsrail və Misir arasında 1979-cu ildə imzalanan sülh sazişinə əsaslanır. Həmin sənəd Sinay yarımadasını “A, B, C” zonalarına bölərək, müxtəlif təhlükəsizlik rejimləri və silahlanma səviyyələri müəyyənləşdirmişdi. Yeni təklifə görə, Dəməşqin cənub-qərbindən İsrail sərhədinədək olan ərazi 3 zonaya bölünəcək. Hər zonada Suriyaya müəyyən miqdarda hərbi qüvvə və silah saxlamağa icazə veriləcək. Sənəd həmçinin Suriya tərəfindəki bufer zonanın əlavə 2 kilometr genişləndirilməsini nəzərdə tutur. Əvəzində İsrail Suriyada ərazilərindən mərhələli şəkildə çıxmağı təklif edib. Lakin İsrail strateji əhəmiyyətli Şeyx dağı zirvəsindəki mövqelərini saxlamaqda israr edir.

Suriya tərəfi də təhlükəsizlik razılaşması əldə etmək və iki dövlət arasında sərhəddə gərginliyi azaltmaq üçün İsraillə danışıqlar apardığını təsdiqləyiib. Bu barədə sentyabrın 13-də “The Jerusalem Post” qəzeti Suriya Ərəb Respublikasının (SAR) prezidenti Əhməd əl-Şaraanın bəyanatına istinadən məlumat yayıb. Bundan əvvəl məlumat verilmişdi ki, Dəməşq İsraildən 1967-ci ildə işğal etdiyi Qolan təpələrinin bir hissəsini geri qaytarmağı tələb etməyəcək, lakin İsrail rəhbərliyindən Suriyanın yeni hakimiyyət orqanlarını tanımasını tələb edəcək.

Suriya liderinin sözlərinə görə, Dəməşq Suriyanın keçmiş prezidenti Bəşər Əsəd rejiminin süqutundan sonra İsrailin işğal etdiyi SAR-ın cənubundakı ərazidən İsrail Müdafiə Qüvvələrinin (IDF) çıxarılması ilə bağlı danışıqlar aparır. Suriya lideri qeyd edib ki, ölkəsi regionun heç bir dövləti ilə münaqişəyə can atmır. Bundan əlavə, qəzet ABŞ-ın Yaxın Şərqdəki qüvvələrinin komandanı admiral Bred Kuperlə Suriya prezidenti Əhməd əl-Şara arasında sentyabrın 12-də Dəməşqdəki prezident sarayında baş tutan görüş haqqında da yazıb.



## Ətrafımızda sülhün olmasını istəyirik

Azərbaycan Yaxın və Orta Şərqdə sülhyaratma missiyası kimi ağır və məsuliyyətli bir vəzifəni üzərinə götürərək uğurlu bir şəkildə icra edir. Diqqətdən qaçırmaq olmaz ki, Bakı regionun mühüm sülhyaratma mərkəzi kimi bir çox konfrantasiyaların həlli prosesinin “masa arxasında” həllində vacib rol oynayıb, beynəlxalq ictimaiyyət üçün etimad ünvanı olduğunu sübuta yetirib. İndiyə kimi ölkəmiz dəfələrlə bu tipli görüşlərə ev sahibliyi edib.

O ki qaldı, İsrail-Suriya məsələsinə, Bakının bu konfliktin həllinə verəcəyi töhfə böyük ola bilər - o baxımdan ki, Azərbaycan hər iki ölkə ilə müsbət və dinamik əlaqələrə malikdir. Bir müddət öncə Prezident İlham Əliyev “Əl-Ərəbiyyə” kanalına müsahibəsində bu məsələyə toxunaraq bildirmişdi ki, Suriya ilə İsrail rəsmiləri arasında danışıqlar bizim vasitəçiliyimizlə baş tutdu: “Biz ətrafımızda sülhün olmasını istəyirik. Təcavüz və müharibədən əziyyət çəkən ölkə və xalq olaraq biz qaçqınlığın, evsizliyin, qaz, elektrik enerjisinə, suya və ya qidaya malik olmamağın nə olduğunu başa düşürük. Bizim məqsədimiz yalnız normallaşma prosesinə və İsrail ilə Suriya arasında proqnozlaşdırıla bilən vəziyyət yaratmağa kömək etməkdən ibarət idi. Əgər biz buna azacıq da olsa, kömək edə bildiksə, buna şadıq. Biz münasibətlərin normallaşması üçün potensialın mövcud olduğunu görürük və bu da Yaxın Şərqə sülhün, proqnozlaşdırmanın əlavə elementlərini gətirəcək”.

Azərbaycan bu gün beynəlxalq ictimaiyyət üçün etimad ünvanı olduğunu növbəti dəfə sübuta yetirir. Bu fikri Suriya-İsrail arasında təmasların formalaşmasına verilən töhfəyə də şamil etmək olar - Bakıda İsrail və Suriya nazirlərinin görüşü təsadüf sayıla bilməz. Bakının isə bu kimi məsələlərdə ortaya qoyduğu mövqe alqışlanasıdır - Azərbaycan İsrail və Suriya arasında dialoq qurulmasına vasitəçilik etməklə iki ölkə arasında gərginliyin aradan qaldırılmasına töhfə verməyə çalışır. İsrail Azərbaycana yaxın dost və tərəfdaş ölkələrdən biridir. Bakının Dəməşq ilə ikitərəfli əlaqələrinə gəldikdə isə, bu münasibətlər 2024-cü ilin 8 dekabrında baş verən hakimiyyət dəyişikliyindən sonra yeni bir mərhələyə qədəm qoyub.

Nəticə etibarı ilə, Azərbaycan Qlobal Cənubun fonunda Yaxın Şərqdə böyük iqtisadi-siyasi rola malikdir. İsrail-Ssuriya münasibətlərinin tənzimlənməsi istiqamətində atılan addımlar Bakının Yaxın Şərq geostrateji regionu ilə əlaqələrinin inkişafında vacib bir səhifədir.

***P.İSMAYILOV***

# Yüksəksəviyyəli münasibətlərin yeni səhifəsi

## Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri iqtisadi əməkdaşlığın yeni gündəliyini müəyyənləşdirir



**Körfəz Əməkdaşlığı Şurasında və Ərəb Dövlətləri Liqasında aparıcı lider dövlətlərdən biri olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Azərbaycan arasında dərin hörmət və sıx dostluğa əsaslanan münasibətlər son illərdə inkişaf edərək bütün sahələrdə irəliləməkdədir. Ali və yüksək səviyyədə səfər mübadilələri və qarşılıqlı təmaslar, eləcə də beynəlxalq platformalarda səmərəli əməkdaşlıq, aktiv parlament diplomatiyası və müxtəlif sahələrdə dinamik fəaliyyət Bakı-Əbu-Dabi əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə qalxmasına gətirib çıxarıb. İki ölkənin dövlət başçılarının, hökumət üzvlərinin, iqtisadi qurumları və biznes nümayəndələrinin birgə səfərlərinin intensiv xarakter alması və aparılan faydalı müzakirələr ticarət, iqtisadiyyat, enerji, ətraf-mühit kimi sahələrdə əməkdaşlıq üçün yeni qapılar açmaqdadır.**



### Güclü siyasi təməl üzərində inkişaf edən iqtisadi əlaqələr

Sentyabrın 16-da Azərbaycana səfər edən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Prezident İlham Əliyevlə keçirdiyi görüşlər və imzalanan mühüm sənədlər tərəfdaşlığın daha da möhkəmlənməsi üçün dərin baza yaratmış olur. Səfər zamanı müzakirə olunan istiqamətlər üzrə əməkdaşlığın intensivləşdirilməsinə dair birgə niyyətlərin ifadə edilməsi iqtisadi bloklarda yeni təkanverici addımların atılacağına dəlalət edir.

Bir neçə ilə qədər Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi proqramların əsas xətti neft-qaz və enerji sahələrini əhatə edirdisə, son illərdə iqtisadi coğrafiya xeyli genişlənib və qeyri-neft sektorunun bütün istiqamətlərində əlverişli işgüzar təmaslar qurulub və bu əməkdaşlıq dayanmadan irəliləyir. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi müasir iqtisadi gündəlik geniş və çoxşaxəlidir, Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri Azərbaycanın strateji tərəfdaşı kimi enerji və iqtisadi inkişafa töhfə verir. Bu ölkənin nəhəng investoru "Masdar" Azərbaycanda ən potensial investorlardan biridir, şirkət 230 meqavatlıq Qaradağ Günəş Elektrik Stansiyasına 262 milyon dollarlıq sərmayə yatırıb və stansiya ötən il istifadəyə verilib.

"Masdar"la imzalanmış digər sazişlərə əsasən, Biləsuvarda 445 MVt, Neftçalada 315 MVt gücündə iki günəş elektrik stansiyası və Qaradağda 240 MVt gücündə bir külək elektrik stansiyasının inşası nəzərdə tutulur. Ümumi sərmayə dəyəri 1 milyard dollar məbləğində qiymətləndirilən 3 layihənin təməlinin atılması bərpa olunan enerji sektorunda böyük sərmayə bumunun nümunəsi hesab edilə bilər. Bundan başqa, "Masdar"la SOCAR arasında Naxçıvan Muxtar Respublikasında 500 MVt gücündə bərpa olunan enerji layihələrinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb.

"Masdar" şirkəti Azərbaycanlı şirkətlərlə birgə Xəzər dənizində 3,5 qiqavat gücündə dəniz külək elektrik stansiyası layihəsi üzərində işləyir. İnvestisiya planına əsasən, Azərbaycanın bərpaolunan enerji sahəsinə 2 milyard dollardan artıq sərmayə yatırılacaq. Bu iri layihələr nəhəng investisiya portfelinin göstəricisi kimi BƏƏ şirkətlərinin Azərbaycana olan yüksək münasibətini əks etdirir.

### Birgə Biznes Şurası ticari əlaqələrin inkişafını təşviq edəcək

Tərəflər digər investisiyayönümlü layihələr üzərində fəal iş aparır və səfər çərçivəsində ölkəmizə gəlmiş nümayəndə heyətlərinin tərkibində nüfuzlu səhmdarların yer alması da bunu təsdiqləyir. Müasir strateji baxış isə əsas etibarilə qeyri-neft bölmələrinə fokuslanıb və hazırda ticari dövriyyədə nəzərə çarpan dinamikanın da əsas hərəkətverici xətti qeyri-neft üzrə əmtəə mübadilələridir. BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın vurğuladığı kimi qeyri-neft sektorunda ticarət dövriyyəsi 2024-cü ildə 2,24 milyard dollara qədər artıb. Bu, olduqca böyük dövriyyədir və ərəb dövlətləri blokunda ən böyük göstəricidir.

İmkanlar isə daha böyükdür. Mövcud potensialları bir platformada birləşdirən tərəflər müştərək iqtisadi hədəfləri həyata keçirmək üçün daha geniştutumlu Yol Xəritəsi hazırlayıb. Bu strateji konsepsiyanın tərkib hissəsi kimi prezidentlərin iştirakı ilə imzalanmış sənədlərin mübadiləsini qeyd etmək olar. Belə ki, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnsan Resursları və Əmirlikləşmə Nazirliyi arasında işçi qüvvəsinin mütəşəkkil qaydada müvəqqəti işə cəlb olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat və Turizm Nazirliyi arasında turizm əməkdaşlığı haqqında Anlaşma Memorandumu" və digər sənədlər yeni əməkdaşlıq proqramının hədsiz çoxşaxəli olmasının göstəricisidir.

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Ticarət və Sənaye Palataları Federasiyası arasında Azərbaycan-BƏƏ Birgə Biznes Şurasının yaradılması haqqında Anlaşma Memorandumu" isə iki ölkənin biznes icmalarını bir platformada birləşdirən müştərək təsisat kimi səciyyələndirilə bilər.

### "Şimal-Cənub" və Orta Dəhlizdə birgə addımlar

Tərəflər arasında "yaşıl enerji" sahəsində inkişaf edən əlaqələrin yeni səhifəsi kimi "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında Azərbaycan Respublikasının yaşıl enerji zonalarında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun əhəmiyyətini də xüsusi qeyd etmək lazımdır. Bu, həm də BƏƏ və Azərbaycanı enerji həmrəyliyini əks etdirir. Hər iki ölkə əvvəllər neft və qaza yönəlmiş siyasət yürüdürdüsə hazırda dayanıqlı enerji balansında "yaşıl enerji" amili daha çox ön plana keçməkdədir. Bu baxımdan, yeni enerji siyasətinə keçidin mühüm seqmenti kimi memorandum Azərbaycan və BƏƏ-nin yeni uğurlu enerji strategiyası olmaqla yanaşı, ekoloji hədəflərinin də müasir vizyonunu nümayiş etdirir.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə "Presight" şirkəti arasında Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyasının icrası üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" isə robot texnologiyaları, süni zəka və rəqəmsal innovasiyalar sahəsində birgə niyyətin ən mükəmməl nümunəsi sayıla bilər.

"Bakı Gəmiqayırma Zavodu" MMC ilə "Əbu-Dabi Limanları Şirkəti" ASC arasında iki ədəd konteyner gəmisinin tikintisinə və satışına dair Müqavilə" nəqliyyat-logistika sahəsində ortaq maraqların ifadəsidir. Bu sənəd çoxşaxəli nəqliyyat dəhlizlərində Azərbaycan və BƏƏ-nin ortaq logistika və nəqliyyat daşınmalarına xüsusi marağını əks etdirməklə Şərq-Qərb, Şimal-Cənub qovşaqlarında vahid tranzit siyasətinə üstünlük verəcəyini şərtləndirir. Ərəb regionu-Yaxın Şərq-Mərkəzi Asiya-Xəzər nəqliyyat habında, o cümlədən Orta Dəhlizdə hər iki ölkənin daşınma infrastrukturlarının, o cümlədən liman potensiallarının əlaqəndirilməsi böyük bir coğrafiyada yük daşınmalarının həcmlərində dinamikanı əhəmiyyətli dərəcədə yüksəldəcək.

### Azad ərazilərdə BƏƏ investisiyaları üçün fürsətlər

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə XRG ASC arasında Cənub Qaz Dəhlizində investisiya haqqında Anlaşma Memorandumu" və "Azərbaycan İnvestisiya Holdinqi ilə "Əbu-Dabi inkişaf Holdinq Şirkəti" ASC arasında "Azər-Türk Bank"ın sərmayələşdirilməsi haqqında Anlaşma Memorandumu" isə yeni investisiya açarı sazişi kimi xarakterizə oluna bilər. Dünyanın ən nüfuzlu sərmayə institutlarından biri olan "Əbu-Dabi inkişaf Holdinq Şirkəti"nin ölkəmizdə layihələrdə təmsil olunması yüz milyonlarla dollar qeyri-neft investisiyası bumunun başlanması deməkdir. Mövcud sitasiyalar isə onu əsaslandırır ki, BƏƏ-nin investisiyalarınnı növbəti fazası Qarabağdakı bərpaolunan enerji sahəsi ilə yanaşı, azad edilmiş ərazilərdə istehsal, emal, turizm, xidmət bölmələrinə yönəldiləcək. Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə gəlmiş tanınmış investorların azad ərazilərdə olması və bölgənin resursları və investisiya imkanları ilə yaxından tanış olmaları da bundan xəbər verir. Azərbaycan hökumətinin bu bölgədə çalışan sərmayəçiləri vergi, gömrük və investisiya güzəştləri ilə təmin etməsi ərəb şirkətlərinə əlavə fürsətlər verir.

Beləliklə, BƏƏ-nin dövlət başçısının Azərbaycan səfəri iki ölkə arasında qardaşlıq, dostluq üzərində qurulmuş əlaqələrin yüksək səviyyəyə çatmasına, imzalanmış çoxsaylı sənədlər isə iqtisadi-siyasi əməkdaşlıq proqramlarının həlledici mərhələyə daxil olmasına imkan yaradacaq.

***ELBRUS CƏFƏRLİ***

# Köklərimizi yaşatmasaq, budaqlarımız solacaq...

## Ənənələrimizi necə qoruyaq ?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə hazırlanmışdır**

**İnsan ağac kimidir, kökü yoxdursa, yerində dayana bilməz. Xalq olaraq bizim kökümüz isə tariximiz, mədəniyyətimiz, milli adət-ənənələrimizdir. Nə qədər inkişaf etsək, texnologiya ilə iç-içə yaşasaq da, milli dəyərlərimizi, bayatıların ahəngini içimizdə hiss etdiyimiz müddətcə hələ də azərbaycanlıyıq. Ənənələr sadəcə keçmişimiz deyil, xalqın yaddaşı, ruhu, kimliyidir. Milli adətlərimiz nəsildən-nəslə ötürülən bir məktəbdir. Məlumdur ki, bu gün dünya sürətlə dəyişir. Texnologiyanın inkişafı, informasiya axınının sürətlənməsi, xarici mədəniyyətlərin təsiri ilə gənc nəsil bəzən öz köklərindən uzaqlaşır. Təəssüf ki, Qərb modelləri, yad yaşam tərzləri bir çox hallarda milli-mənəvi dəyərlərimizin kölgədə qalmasına səbəb olur. Məsələn, toy və nişan mərasimlərimizdə milli musiqi və geyimlərin yerini bəzən xarici üslublar tutur, Novruz bayramının dərin fəlsəfi və mədəni mahiyyəti bəzən sadəcə bir tətil kimi qəbul olunur, ailə dəyərləri və böyüyə hörmət kimi əxlaqi prinsiplər müəyyən qədər zəifləyir. Bu cür hallar təbii ki, milli dəyərlərimizin itirilməsi ilə nəticələnə bilər. Odur ki, bu sahədə ciddi mübarizə aparmaq vacibdir.**

### Adət-ənənələrimiz yalnız xüsusi günlərdə xatırlanmalı deyil

Mövzuya aid fikirlərini "Yəni Azərbaycan"la bölüşən folklorşünas alim Məhəmməd Məmmədov bildirib ki, milli adət-ənənələrin qorunması məsələsi sadəcə mədəniyyət sahəsinə deyil, eyni zamanda cəmiyyətin sosial strukturuna və kimlik formalaşmasına da birbaşa təsir göstərir: "Çünki adət-ənənələr xalqın sosial yaddaşını, həyat tərzini və birlik duyğusunu ifadə edən mühüm sosial institutlardır. Onlar həm ailə münasibətlərində, həm də icma və milli birlik çərçivəsində sosial sabitliyin qorunması üçün mühüm rol oynayır.

Adət-ənənələrin qorunması üçün ilk növbədə onların gündəlik həyatla əlaqəsinin saxlanılması vacibdir. Yəni bu dəyərlər yalnız bayram və xüsusi günlərdə xatırlanmalı deyil, gündəlik davranış və münasibətlər sistemində də yaşamalıdır. Məsələn, böyüyə hörmət, qonaqpərvərlik, ailə dəyərləri və qarşılıqlı yardım kimi sosial davranış nümunələri bizim milli adət-ənənələrimizin əsas sütunlarındandır və bunlar sadəcə folklor yox, gündəlik sosial təcrübə olaraq qorunmalıdır".

### Gənclər arasında təbliğat müasir formatda olarsa...

Folklorşünas qeyd edib ki, bu dəyərləri qorumağın ən effektiv yollarından biri onları gənc nəslə müasir dillə və müasir formatda çatdırmaqdır: "Bu gün gənclər informasiyanı əsasən sosial media, film və vizual məzmunlar vasitəsilə qəbul edir. Ona görə də, adət-ənənələr yalnız kitab səhifələrində qalmamalı, onları animasiyalar, sənədli filmlər, sosial layihələr və rəqəmsal platformalar vasitəsilə təqdim etmək lazımdır. Bu, gənc nəslə öz kimliyini daha aydın və maraqlı şəkildə tanıdacaq".

### Milli dəyərlər ilk növbədə ailədə formalaşır...

Alimin sözlərinə görə digər mühüm məsələ icma əsaslı təşəbbüslərin gücləndirilməsidir: "Regionlarda və kəndlərdə yerli icmaların təşkil etdiyi mərasimlər, folklor festivalları və milli mətbəx günləri təkcə əyləncə yox, həm də sosial birliyi qoruyan, adətləri yaşadan mühüm vasitələrdir. Dövlət və qeyri-hökumət təşkilatları belə təşəbbüslərə dəstək verməli, bu cür tədbirləri daha geniş auditoriyaya çatdırmalıdır.

Və nəhayət, ailə institutunun gücləndirilməsi bu prosesin təməlini təşkil edir. Çünki milli dəyərlər ilk növbədə ailədə formalaşır. Uşaq böyüyə hörməti, milli bayramların mənasını, ənənəvi yeməklərin hazırlanmasını və xalq nağıllarını ilk dəfə ailəsində öyrənir. Ailədə bu dəyərlər verilmirsə, cəmiyyətin digər institutları bunu tam şəkildə əvəz edə bilmir".

Göründüyü kimi, milli adət-ənənələrin qorunması yalnız keçmişə hörmət deyil, həm də gələcək üçün məsuliyyətdir. Bu dəyərlər unudularsa, xalq olaraq köklərimizdən uzaqlaşar, qlobal mədəniyyətdə özümüzü itirə bilərik. Buna görə də hər bir fərd, ailə və cəmiyyət bu məsuliyyəti öz üzərinə götürməli, mədəni irsimizi gündəlik həyatın bir parçası kimi yaşatmalıdır.

***Yeganə***

# Regionun sabitlik və inkişaf xəritəsi: 3+3 modeli

## Cənubi Qafqaz üçün yeni əməkdaşlıq formatı...

Post-müharibə dövrünün reallıqları arasında münasibətlərin normallaşması, bölgədə yeni iqtisadi sistemin qurulması və əlaqələrin yeni müstəvidə formalaşdırılması kimi faktorlar da yer almaqdadır. Bu istiqamətdə illərdir ki, davam edən və özünün məntiqi nəticəsinə yaxınlaşan proses müsbət trayektoriyalı inkişaf xəttinə malikdir. Vaşinqton görüşü ilə yeni mərhələyə qədəm qoyan sülh prosesi özlüyündə Cənubi Qafqazın stabil və sabit ünvan kimi şöhrət qazanmasına, tanınmasına, qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapmasına  yol açır. Bu isə həm də region ölkələri arasında əməkdaşlığa yeni bir ölçü qazandırır. Müharibədən ötən 5 ildə bütövlükdə region üçün yeni perspektivlər açılması istiqamətində mühüm addımlar atılır - Azərbaycanın yürütdüyü siyasətin hədəfi məhz buna yönəlib. Bizim əsas prioritetimiz Cənubi Qafqaz üçün yeni inkişaf tempi qazandırmaqdır. Azərbaycanın qətiyyəti və sülhpərvər mövqeyi ilə Cənubi Qafqaz dünyanın yeni iqtisadi münasibətlər sistemində özünəməxsus yer qazanır.

### Moskva prosesi dəstəkləyir...

Yeri gəlmişkən, Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə bildirib ki, Rusiya Ermənistan-Azərbaycan münasibətlərində əldə olunan tərəqqini alqışlayır. O deyib: “Bununla belə, Bakı və İrəvanın qarşısında qalan fikir ayrılıqlarını aradan qaldırmaq, xüsusən də ədalətli əsaslarla sülh sazişi imzalamaq, sərhədin delimitasiyası və demarkasiyasını başa çatdırmaq, nəqliyyat kommunikasiyalarını açmaq, bütün bunları hər iki ölkənin, həmçinin regionun ən böyük siyasi və iqtisadi qonşuları olan Rusiya, İran, Türkiyə kimi dövlətlərin maraqlarına uyğun şəkildə etməklə bağlı görüləcək çox iş var”.

M.Zaxarova vurğulayıb ki, “3+3” regional əməkdaşlıq platforması Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələlərinin və Cənubi Qafqazın digər aktual mövzularının müzakirəsi üçün yaxşı vasitədir. Bu platformaya Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya, İran və Türkiyə daxildir.

Rusiya XİN-in nümayəndəsinin sözlərinə görə, Moskva azərbaycanlı və erməni həmkarlarından bu platformanın üzvü olan ölkələrin xarici siyasət idarələrinin növbəti iclasının yeri və tarixlərinin tezliklə razılaşdırılması üzrə fəal addımlar gözləyir. O, uğur əldə etmək üçün Rusiyanın tərəfdaşlarına lazımi köməklik göstərməyə hazır olduğunu təsdiqləyib.



### İnkişaf və əməkdaşlıq üçün mühüm çağırışlar...

Hazırki mərhələ regionda indiyə qədər formalaşan əməkdaşlıq platformalarını daha da təkmilləşdirir - bugünədək bölgədə formalaşdırılan Azərbaycan - Gürcüstan - Türkiyə, Rusiya - İran - Azərbaycan və bu kimi üçlü, Azərbaycan - İran - Türkyə - Rusiya kimi dördlü əməkdaşlıq platformaları həm miqyasına, həm də hədəfələrinə görə genişlənir. “3+3” formatı kimi müəyyənləşdirilən və Azərbaycan ilə Türkiyənin təşəbbüsü ilə həyata keçirilən platforma isə əsasən region problemlərinin regiondan kənar ölkələrin iştirakı olmadan və bölgə ölkələrinin iştirakı ilə həll olunmasını, regional əməkdaşlıqların möhkəmləndirilməsini özündə ehtiva edir. Qeyd edək ki, “3+3” formatında ilk iclas Gürcüstanın iştirakı olmadan xarici işlər nazirlərinin müavinləri səviyyəsindən 2021-ci il 10 dekabr tarixində Moskvada keçirilmişdi. İkinci tədbir isə 2023-cü ilin oktyabrında XİN başçılarının iştirakı ilə Tehranda reallaşdı. Moskva toplantısında iqtisadiyyat, energetika, ticarət, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, təbii ehtiyatlar, təhsil, mədəniyyət, turizm kimi sahələr üzrə əməkdaşlığın perspektivi nəzərdən keçirilmişdisə, Tehranda baş tutan beştərəfli görüşdə regional kommunikasiya məsələsi də müzakirə predmetinə çevrilmişdi. 2024-cü ilin oktyabrında isə tədbir İstanbulda baş tutdu.

Qeyd edək ki, bu seriyadan olan görüşlərin iqtisadi nəticələri isə daha böyük coğrafiya üçün maraq və əhəmiyyət kəsb edir. Çünki Cənubi Qafqazda yaranan əməkdaşlıq platformalarının miqyası yalnız 6-lıq ölkələri ilə məhdudlaşmır. Bu və ya digər şəkildə TDT, BRICS, ŞƏT, hətta Avropa Birliyinin diqqətini özünə cəlb edən bu əməkdaşlıq müstəvisinin əhəmiyyəti böyük ölçü ilə qiymətləndirilir - bu formatın uğurlu sferaya qədəm qoyması özlüyündə Zəngəzur dəhlizinin (TRİPP) reallaşmasını, münasibətlərin normallaşmasını, bölgənin yeni iqtisadi trendə çevrilməsini və beynəlxalq tranzit qovşağa transformasiyasını gerçəkləşdirir. Bu baxımdan, gərgin siyasi mövcudiyyətdə platformanın irəliyə atdığı hər bir addım böyük bir region üçün müsbət dividendlər vəd edir.

Azərbaycan isə bütün hallarda istər təşəbbüskarı olduğu, istərsə də iştirakçı kimi təmsil olunduğu qlobal layihələrin ilk növbədə qlobal səmərəsini düşünür - ölkəmiz üçün bölgənin ümumi inkişaf tempinin yüksəlməsi əsas hədəfdir. Məhz ölkəmizin səyi nəticəsində Cənubi Qafqaz yeni iqtisadi-siyasi nizamın ən mühüm elementlərindən biri qismində çıxış edir. Həm Şərqin, həm də Qərbin geosiyasi maraq dairəsində olan coğrafiyamızı “vazkeçilməz” edən məhz burada yaradılan sabitlik faktorudur. Azərbaycanın iradəsi ilə qətiləşən sabitlik isə iqtisadi əməkdaşlığın əsas təməl prinsiplərindən biri qismində çıxış edir.

Vaşinqton görüşləri və sülh sazişinin paraflanması göstərdi ki, Azərbaycanın Cənubi Qafqazda yaratdığı geosiyasi reallıqlar İrəvan tərəfindən də qəbul olunur. Ölkəmizin qətiyyəti ilə sülh sazişinin müddəalarını qəbul edən Ermənistan “3+3 formatı”nın yeni əməkdaşlıq platforması kimi fəal müstəvi şəkli almasına da tərəfdardır. Təsadüfi deyildi ki, Vaşinqton görüşlərindən, xüsusilə Zəngəzur dəhlizinin (TRİPP) açılması ilə bağlı razılaşmadan az sonra Ermənistanın siyasi hakimiyyəti “3+3” formatlı görüşlərlə bağlı mövqe ortaya qoydu. Ermənistan xarici işlər nazirinin müavini Vaan Kostanyan İranın IRNA agentliyinə müsahibəsində bildirmişdi ki, Cənubi Qafqazda kommunikasiyaların blokdan çıxarılmasına dair razılaşma “3+3” formatında dialoqda yeni səhifə açıb, bu formatda növbəti görüşün Bakıda və ya İrəvanda keçirilməsi planlaşdırılır. “Hesab edirik ki, bu dialoq formatı regional, xüsusən də nəqliyyat və infrastruktur kommunikasiyaları sahəsində olan layihələrin müzakirəsi üçün əlverişli platformaya çevrilə bilər”, - o bildirmişdi. Kostanyan Azərbaycan və Ermənistan arasında münasibətlərdə son hadisələrin, eləcə də regionda nəqliyyat marşrutlarının bərpasına dair fundamental razılaşmanın dialoq üçün, o cümlədən “3+3” çərçivəsində yeni fəsil açdığını vurğulamışdı.

### İqtisadi inteqrasiyanın və siyasi dialoqun əsas lokomotivi...

Beləliklə, 3+3 formatı regionda sabitliyin, əməkdaşlığın və tərəqqinin yeni xəritəsini yaradır. Bu platforma təkcə təhlükəsizlik zəmanəti deyil, həm də iqtisadi inteqrasiyanın, siyasi dialoqun və mədəni yaxınlaşmanın əsas lokomotivinə çevrilir. Azərbaycanın təşəbbüsü və fəal rolu isə formatın gələcək uğurlarını şərtləndirən mühüm amildir. 3+3 modeli həm bölgə dövlətlərinin maraqlarını uzlaşdırır, həm də regional güc mərkəzinin yaranmasına real zəmin yaradır.

***P.İSMAYILOV***

# Orta Dəhliz Azərbaycan, Qazaxıstan və Gürcüstanın investisiya potensialını artırır

## “Moody`s”: Azərbaycanın BAA3 reytinqi maliyyələşdirmə çevikliyini əks etdirir

Beynəlxalq reytinq agentliyi “Moody`s” regionda baş verən geosiyasi münaqişələr və logistika fraqmentasiyalarının artdığı, eyni zamanda yeni tarif qaydalarının tətbiqinin təsiredici xarakter aldığı bir mühitdə alternativ ticarət marşrutlarının, o cümlədən Mərkəzi Asiya və Qafqazı birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə bağlı nikbin ehtimallarını açıqlayıb. Agentliyin ekspert qrupunun təhlillərinə əsasən, Orta Dəhlizə üzrə tranzit daşınmalarının yüksəlməsi və bu coğrafiyada yerləşən dövlətlərin infrastruktur yenilənilməsi istiqamətində davamlı səyləri sözügedən nəqliyyat arteriyasının regional geoiqtisadi nüfuzunu və investisiya qabiliyyətini gücləndirir. Orta Dəhlizdə fəal yer alan və daim infrastrukturların yenilənməsinə maliyyə vəsaitləri cəlb edən Qazaxıstan, Azərbaycan və Gürcüstan “Moody`s” tərəfindən investisiyayönümlü  ölkələr kimi səciyyələndirilir.

Agentliyin qiymətləndirmələrinə görə, Orta Dəhlizin inkişafı region adıçəkilən ölkələrinin suveren kredit keyfiyyətinin güclənməsinə töhfə verir və investisiya reytinqlərinin artırılması üçün zəmin yaradır. Qeyd edək ki, “Moody`s” bir müddət əvvəl Qazaxıstanın kredit reytinqini BAA1, proqnozunu isə sabit), Azərbaycanın uzunmüddətli reytinqini BAA3, proqnozunu müsbət, Gürcüstanın reytinqini isə BA2, proqnozunu mənfi səviyyəsində təsdiqləyib. Bu ölkələr arasında yalnız Azərbaycanın reytinq proqnozu investisiya dərəcəli səviyyəsində müəyyən edilib. Bu göstəricinin təsdiq edilməsi Azərbaycanın iqtisadi və maliyyə sektorunda baş verən irəliləyişlərdən qaynaqlanır. Azərbaycanın reytinqi çox güclü xarici balansı, “BBB” reytinq kateqoriyasında ən aşağı dövlət borcu göstəricilərindən birini və maliyyələşdirmə çevikliyini təmin edən əhəmiyyətli suveren aktivlərin mövcudluğunu əks etdirir. Müsbət amillər arasında iqtisadiyyatda xarici valyutanın adekvat təklifi, maliyyə sisteminin dollarlaşmasının azalması, Mərkəzi Bankın likvidlik idarəetməsinin yaxşılaşması, məzənnə sabitliyini dəstəkləyən etibarlı valyuta ehtiyatları və xarici valyutada ifadə olunan Dövlət Neft Fondunun aktivləri əsas faktorlar kimi vurğulanır.

### Bakı-Tbilisi-Qars dəmir yolu xətti tam modernləşdirilib

“Moody`s”un qənaətinə görə, dövlətin birbaşa öz sərmayələri infrastrukturun müasirləşdirilməsini təmin edir və bu sahəyə yönəldilən vəsaitlər büdcə xərclərini artırsa da, fiskal balansı pozmur, digər güzəştli maliyyə mənbələrinə çıxış imkanları hesabına kompensasiya olunur. Sözsüz ki, burada xarici maliyyə institutları ilə nəqliyyat investisiyalarından söhbət gedir. Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və digər maliyyə təchizatçıları ilə səmərəli əməkdaşlıqlar şəraitində son illərdə nəqliyyat infrastrukturlarını modernləşdirib. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsi, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının yükgötürmə və yükötürmə gücünün artırılması, yolboyu mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin sürətləndirilməsi üçün əhəmiyyətli tədbirləri görülüb. Etibarlı və dayanıqlı maliyyə təchizatçılarından biri kimi Asiya İnkişaf Bakı regional nəqliyyat layihələrinin maliyyələşdirilməsində aparıcı donor kimi fəal rol oynayıb, avtomobil və dəmir yolu xəttinin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi üçün ölkəmizə 250 milyon dollardan çox kredit ayırıb. Habelə “Dəmir yolu sektorunun inkişafı proqramı” çərçivəsində 250 milyon dollar məbləğində kredit vəsaitləri yönəldilib. AİB hazırda Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri çərçivəsində dəmir yolu sektorunda nəzərdə tutulan işlərin tamamlanması və Bakı şəhərində mobilliyin artırılmasında ölkəmizə dəstək verməkdədir.

### Gürcüstan və Qazaxıstanın Orta Dəhlizdə fəallığı artır

“Moody`s”un mövcud dəyərləndirmələri Azərbaycanın investiya cəlbedilciyinə işarə etməklə, və Orta Dəhlzidəki tərəfdaşları ilə birlikdə beynəlxalq maliyyə institutlarından nəqliyyat və logistika sektoruna yeni vəsaitlər yönəldilməsinə münbit şərait yaradır. Agentlik hesab edir ki, Orta Dəhliz infrastrukturunun inkişaf et-



dirilməsində Gürcüstan da xeyli işlər görüb, Qara dənizdəki limanlarda yenidənqurma işləri aparılıb. Qazaxıstan hökuməti isə Mərkəzi Asiya bölgəsində dəmir yolu və liman infrastrukturlarını tam müasirləşdirilib, digər nəqliyyat xətləri ilə birləşdirmək üçün yeni layihələr icra edir. Qazaxıstanın milli dəmiryol operatoru olan “Kazakhstan Temir Zholy” SC-nin bu istiqamətdə roluna xüsusi diqqət yetirən “Moody`s” hesab edir ki, milli şirkətin strateji mövqeyi və aparıcı maliyyə instititutlarının benefisiarlığı sayəsində tranzitlərin şaxələnməsi reallaşır. Qazax hökuməti Məngistay vilayətində uzunluğu 64 kilometr olan Kurık və Jetıbay kəndlərini birləşdirən respublika əhəmiyyətli yolun əsaslı təmirini başa çatdırıb və Orta Dəhlizdə yeni potensiallar yaranır. Belə ki, Kurik limanı Azərbaycanın Beynəlxalq Dəniz Limanı ilə əlaqələndirilib. Aktau ilə yanaşı, həmin limandan daşınan beynəlxalq yüklər Xəzər dənizi vasitəsilə Bakı Beynəlxalq Limanına, oradan isə Gürcüstan,Türkiyə və Avropa ölkələrinə göndərilməkdədir.



### Logistikanın yenilənməsi və liman infrastrukturunun genişləndirilməsi

“Moody`s”un ekspert qrupunun qənaətinə görə, Orta Dəhlizin tam potensialının üzə çıxarılmasını məhdudlaşdıran çatışmazlıqlar da mövcuddur ki, beynəlxalq nəqliyyat icması və investisiya koalisiyası ilə birlikdə bunların da öhdəsindən gəlmək mümkündür. Belə ki, dəmir yollarının ötürmə qabiliyyətinin artırılması, köhnəlmiş logistikanın tam yenilənməsi, liman infrastrukturunun genişləndirilməsi, həmçinin gömrük prosedurlarında və normativ standartlarda koordinasiyasının təmin edilməsi üçün təsirli addımların atılmasına ehtiyac var.

Reytinq agentliyinin qeyd etdiyi məsələlər Orta Dəhlizin iştirakçılarını da qayğılandırır və bu istiqamətdə müvafiq konsepsiya hazırlanıb. Bir neçə ay əvvəl Bakıda keçirilən “Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu” Beynəlxalq Assosiasiyasının iclasında yeni fəaliyyət planı müəyyənləşib ki, həmin plana Orta Dəhlizdə daşınmaların həcminin artırılması üçün digər ölkələrdəki infrastrukturların modernləşdirilməsi və yeni logistika qovşaqlarının tikintisi, dəhliz üzərində yerləşən ölkələrin nəqliyyat-logistika şəbəkələrinin daha sıx əlaqələndirilməsi, rəqəmsal idarətmənin qurulması və digər məsələlər daxildir. Azərbaycan, Gürcüstan, Qazaxıstan, Ukrayna, Türkiyə, Çin, Polşa, Litva, Sinqapur, Bolqarıstan və Rumıniyanın müvafiq qurumlarının nümayəndələrinin yüksək səviyyəli rəsmilərinin iştirak etdiyi həmin tədbirdə Assosiasiya üzvləri 2025-ci il və qarşıdakı illərə dair yeni strateji hədəfləri müəyyənləşdiriblər. Həmin hədəflərdən biri tarif dərəcələrinə düzəlişlərdir.

### Tranzit gömrük prosedurları sadələşdirilir

Tərəflər hazırda nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması üçün stimullaşdırıcı mexanizmlərin tətbiqini nəzərdə keçirir. Həmin mexanizmlər dəniz limanları, dəmir və avtomobil yolları, logistika qovşaqlarında əməliyyatlar və gömrük prosedurlarının asanlaşdırılmasını, sərfəli tariflərin tətbiqini nəzərdə tutur. Orta Dəhliz boyu “Bir pəncərə” prinsipindən istifadə edilməsi, tranzit gömrük prosedurlarının sadələşdirilməsi, yük və nəqliyyat vasitələrinin sərhədkeçmə proseslərinin sürətləndirilməsi mexanizmlərinin hazırlanması məqsədilə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Gürcüstan gömrük xidmətlərinin rəhbərləri, eləcə də Ümumdünya Gömrük Təşkilatının və Türk Dövlətləri Təşkilatının rəhbərliyi, BMT-nin Avropa üçün İqtisadi Komissiyasının nümayəndələri bir araya gələrək güzəştli tarif dəhlizinin yaradılmasına razılıqlarını bəyan ediblər.

Beləliklə, “Moody`s” reytinq agentliyinin vurğuladığı kimi Orta Dəhliz tərəfdaşlarının investisiya reytinqləri beynəlxalq maliyyə institutları ilə əlverişli şərtlərlə sərmayələrin cəlb edilməsinə imkan yaratmaqla, dəhlizin logistika infrastrukturunun tam yenilənməsinə və Asiya-Avropa nəqliyyat blokunun tam rentabelli işinin təmin edilməsinə səbəb olacaq.

***ELBRUS CƏFƏRLİ***

# Dünya ölkələri yeni qlobal böhranın astanasında

## Nüfuzlu iqtisadi institutların ehtimalları maliyyə böhranının yaxınlaşmasından xəbər verir

**İsveçrədə nəşr olunan almandilli “Neue Zürcher Zeitung” qəzetində “2028-ci ildə böhran və münaqişələr güclənəcək. Ağır olacaq. Bu panikadır?” - sərlövhəli analitik materialda yeni qlobal böhranın anonsları verilib. Müəlliflər Markus Bernat və Markus Ştedeli tanınmış ekspertlərin fikirlərinə istinadən qeyd edirlər ki, ağır sınaqlar qarşısında olan dünya dövlətləri fəlakətli səmtə doğru gedir, 2028-ci ildə Rusiya ilə Qərb arasında müharibənin başlanması ehtimalları artır ki, bu da ümumdünya maliyyə böhranına səbəb ola bilər.**

### Qərb demokratiyasının süqutu böhran üçün siqnaldır

Adıçəkilən media orqanı bildirir ki, gözlənilən ehtimallar reallığa çevrilir, Rusiyanın pilotsuz uçuş aparatlarının (PUA) Polşa hava məkanını pozmasından sonra baş nazir Donald Tusk “Biz İkinci Dünya müharibəsindən sonra yeni müharibəyə daha da yaxınlaşdıq” fikri, Fransa hökumətinin xarici borcları ödəmək üçün “qənaət rejiminə” keçməsi və bunun nəticəsi olaraq ölkəni bürüyən kütləvi etirazlar, ABŞ-da nüfuzlu siyasi fəal Çarli Kirkin insanların gözü qarşısında öldürülməsi, qlobal iqlim dəyişmələri ilə bağlı ayrı-seçkiliyin dərinləşməsi və digər neqativ amillər Qərb demokratiyasının süqutuna işarə edir. Qərbin liberal iqtisadiyyat modeli artıq yüklənmiş vəziyyətdədir və böhranın qarşısını almaqda çətinlik çəkir.

Münxen Universitetinin professoru, hərbi ekspert Karlo Maslanın fikirləri də maraq doğurur. Professor vurğulayır ki, 2028-ci ildə Rusiya Prezidenti Vladimir Putin Baltikyanı ölkələrə qarşı müharibəyə başlayacağı gözlənilir. Kreml ilk olaraq Estoniyanın sərhədyanı Narva şəhərini tutacaq və əhalisinin əksəriyyəti ruslardan ibarət olan bu şəhər təcavüz üçün bəhanəyə çevriləcək. NATO dövlətləri isə Baltikyanı ölkələrə görə nüvə silahına malik olan Rusiya ilə münaqişəyə girməyəcək. Aİ-nin qeyri-həmrəyliyini öyrənmək üçün Rusiyanın Polşaya dron hücumu da əbəs yerə deyildi. Rəsmi Moskva Avropanın nəbzini bu presedentlə yoxladı və Avropada birliyin olmamasını tam yəqinləşdirdi.




### Qlobal xarici borc idarəolunmaz həddə çatıb

Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallas da Rusiya təhlükəsinin real olduğunu bəyan edib. Sitat: “Rusiyanın strateji məqsədi heç də Parisi və Berlini işğal etməkdən ibarət deyil. Məqsəd Şərqi Avropanı nəzarətdə saxlamaqdan ibarətdir”.

Böyük Britaniyanın baş qərargah rəisi, general Roland Uoker isə vurğulayıb ki, 3 ildən sonra Rusiya, Çin, Şimali Koreya və İran öz qüvvələrini birləşdirərək Qərbə qarşı müharibəyə başlaya bilər. Yeni münaqişədə isə Amerika Avropaya heç bir yardım göstərməyəcək. Amerika və Çin silahlı toqquşmadan yayınacaq, çünki iki super güc arasında müharibə qalibsiz sona çatacaq. Bu baxımdan Vaşinqton və Pekin reallığı çox yaxşı anlayır.

ABŞ-ın “Bridgewater Associates” fondunun təsisçisi, iqtisadçı Rey Dalio “Financial Times” qəzetinə verdiyi müsahibəsində bildirib ki, ABŞ iqtisadiyyatı borca görə təhlükə qarşısındadır. “Borc faizlərini ödəmək üçün ABŞ ildə 1 trilyon dollar vəsait ödəməlidir ki, bu da yaxşı nəticə verməyəcək”. Harvard Universitetinin iqtisadiyyat üzrə professoru Kent Roqoff da reallığı oxşar təsvir edərək ABŞ-ın timsalında qlobal böhranın qapının bir addımlığında olmasına diqqət çəkib.

Sözsüz ki, yeni dünya iqtisadi böhranı Amerikadan istiqamət götürməklə onsuz da qlobal şoklara həssas olan Avropa və Asiya qitələrini sarsıdacaq. 2007-2008-ci illərdə ABŞ-da baş vermiş maliyyə böhranının Avropada dərin yaralar açması unudulmayıb. Əsas səbəblərdən biri Amerikanın ipoteka kredit bazarındakı sabitsizlik və maliyyə sistemində risklərin düzgün idarə edilməməsi ilə bağlı olan həmin maliyyə böhranı qlobal maliyyə sistemində böyük zərərlərə və iqtisadi çöküşə səbəb oldu. “Bear Stearns” və “Lehman Brothers” kimi nəhəng maliyyə bloklarını sarsıdan böhran digər ölkələri təsirləndirməklə ABŞ və Avropada işsizliyi ən yüksək səviyyəyə çatdırdı. İstehlak və investisiyaların azalması, iqtisadi inkişafın sürətlə zəifləməsi, qlobal ticarətdə kəsirlərin böyüməsi durğunluğu bir neçə il davam etdirdi. Maliyyə bazarlarında itən inamı bərpa etmək 4-5 il çəkdi.

### COVID-19-dan daha kəskin şoklar

Ona görə də, dünya ölkələri ehtimal edilən yeni böhranın bir neçə il ağır sıxıntılar yaradacağından ehtiyat edir. Fərziyələrə görə, yeni ümumdünya böhranı COVID-19 pandemiyasından sonra yenidən özünə gəlmiş qitə dövlətlərinin iqtisadiyyatındakı kövrək immuniteti sıradan çıxarmaqla dözülməz şoklara səbəb ola bilər. Xüsusən də pandemiya dövründə peyvənd, tibbi ləvazimat və avadanlıqlar almaq üçün nəzərdə tutulmayan miqdarda vəsait xərcləyən həmin region coğrafiyasını üzvlərinin ağır borclanma təhdidləri ilə üzləşməsi də istisna deyil. 2020-2022-ci illərdə beynəlxalq maliyyə institutlarından külli miqdarda borc almaqla xarici borc yükünün ağırlarını daşıyan bu ölkələrin köhnə borc və faiz mirasının üzərinə əlavə borclanma təzyiqinin gəlməsi iqtisadi tarazlığın uzunmüddətli bərpasını çətinləşdirməklə onillərə gedib çıxacaq sosial problemləri də dərinləşdirəcək.

Bir sözlə, qlobal gərginliklər və geosiyasi kataklizmlər, qlobal maliyyə arxitekturasının çat verməsi, dünyanın iri iqtisadiyyatlarının və maliyyə bazarlarının mənfi fraqmentasiyaları fonunda böhranın ayaq səsləri eşidilir. Maliyyə ekspertlərinin tələsik təkrarladıqları kimi Qərbin iqtisadi vizyonu çətin fazaya keçir. Yaxın 3 illik period yaxşı perspektivlər vəd etmir, Böyük Britaniya, Almaniya, Fransa kimi dövlətlərdə keçiriləcək yeni seçkilərdə populist siyasətçilər qalib gəlsə, böhran qaçılmaz olacaq və ehtimallardan daha pis nəticələrlə xarakterizə ediləcək.

### Geosiyasi ambisiyalara son verilsə, böhrandan yayınmaq olar

Ötən illərin təcrübəsi də təsdiqləyir ki, Qərbdə ali kürsəyə yiyələnən populist siyasi elitaların seçicilərə verdiyi çoxsaylı vədlərin ardından bacarıqsız idarəetmə və iqtisadi proqramlardakı yarımçıqlıq çıxış yolu kimi xərclərin qısaldılması, ağır borclanma və digər risklərə səbəb olub. Həmin hökumət komandaları real büdcə artımlarını təmin edə bilmədiyindən süni sosial xərc paketləri həyata keçirir, sosial təminatı, pensiya və əməkhaqlarını yüksəltmək məcburiyyətində qalırlar, nəticədə isə real fiskal bazis və gəlirgətirən iqtisadi drayverlər laxladığından son addım xarici borclanmalara getmək olur. Bu isə büdcə xərclərinin gəlirləri kəskin üstələməklə aradakı defisitin maliyyə institutları və digər dövlətlərdən cəlb olunan borclarla ötmək məcburiyyətini reallaşdırır. Bu tendensiya Qərbdə iqtisadi idarətmənin siyasi hakimiyyətə iddialı olan populist elitanın baxış və proqram hədəflərinin gerçək təzahürləridir.

Beləliklə, almandilli nəşrdə vurğulanan məqamlar, eləcə də tanınmış ekspertlərin proqnozları ona işarə edir ki, böyük dövlətlər geosiyasi ambisiyalarından əl çəkmədiyi halda risk və qlobal şoklar tezləşməklə qarşısıalınmaz planetar təhlükələrə səbəb olacaq. Əgər münaqişələr dayandırıldığı və yenilərinin başlamasının qarşısı alındığı halda, eyni zamanda bu amillərlə yanaşı, beynəlxalq maliyyə sistemlərində yumşaldıcı siyasət tədbirlər və sərmayə yatırımları intensivləşdiyi təqdirdə gözlənilən böhran ehtimal olaraq qala bilər. Əks halda, ehtimal qəti gerçəklik kimi bütün dünya dövlətlərinə ağır itkilər yaşadacaq.

*E.CƏFƏRLİ*

# Ağrı dağının təsviri möhürlərdən niyə çıxarılıb?

**Bu günlərdə Ermənistan cəmiyyəti yeni gündəmlə çalxalanmaqdadır. Söhbət bu ölkənin sərhəd-keçid möhürlərindəki təsvirlərin dəyişdirilməsindən gedir. Bundan sonra ermənilərin “Ararat” adlandırdıqları Ağrı dağının təsviri artıq bu ölkənin sərhəd - keçid möhürlərində yer almayacaq. Sentyabrın 11-də verilən qərar noyabrın 1-dən etibarən qüvvəyə minəcək. Həmin tarixdən etibarən möhürlərdə dağın təsviri olan hissədə erməni və ingilis dillərində “Ermənistan” sözü, sərhəd-keçid məntəqəsinin adı, keçid tarixi və məntəqənin növünü (hava, dəmir yolu və ya avtomobil) göstərən işarələr yer alacaq.**

### Heç bir reallığa əsaslanmayan erməni mifləri

Ermənistan cəmiyyəti onilliklər boyunca saxta, heç bir əsası olmayan miflərin əsiri olub, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Erməni lobbisinin, kilsənin onilliklər boyunca insanların şüuruna yeritdikləri belə miflərdən biri də “Dənizdən dənizə Ermənistan” xülyasıdır. Saxta mifologiya əsasında ölkənin sərhədləri xəyali xətlər üzrə hədsiz dərəcədə genişləndirilib. Bu mifologiyada Azərbaycan və Türkiyəyə ərazi iddiaları xüsusi yer tutur. İmperialist güc mərkəzlərinin dəstəyi ilə 1918-ci ildən etibarən indiki Ermənistanın yerləşdiyi tarixi Azərbaycan torpaqlarında bu yerlərin aborigen sakinlərinə - azərbaycanlılara qarşı dörd dəfə dəhşətli deportasiyalar törədilməklə, tarixi dini-mədəni abidələrimiz məhv edilməklə, toponimlər saxtalaşdırılmaqla saxta dövlət qurulub. Ötən əsrin səksəninci illərinin sonu -doxsanıncı illərinin əvvəllərindən eti-

Ni-
kol Paşinyanın
miflərdən imtina ça-

barən Ermənistan Azərbaycana qarşı yeni ilhaq siyasətinə başlayıb. Yalnız 2020-ci ildə baş verən 44 günlük müharibədə Azərbaycanın tarixi Qələbəsi sayəsində bu ilhaq siyasətinə son qoyulub. Məhz bu Qələbədən sonra Ermənistanın indiki hakimiyyəti reallıqdan çıxış etmək məcburiyyətində qalıb. Son vaxtlarda Baş nazir Nikol Paşinyan erməni miflərindən uzaqlaşmağa, xəyali deyil, real Ermənistanla yaşamağa çağırış edir.

O cümlədən Ağrı dağının təsvirinin Ermənistanın gerbində və digər rəmzlərində yer alması bu ölkənin onilliklər boyunca qardaş Türkiyəyə qarşı ərazi iddialarından çıxış etməsinin əyani təsdiqidir. Ağrı dağının erməni dilindəki

ğı-
rışı, o
cümlədən də
ölkənin sərhəd-keçid məntəqələrinin möhürlərindən Ağrı dağının təsvirinin götürülməsi Ermənistan müxalifətinin fəallaşması üçün bir fürsətə çevrilib. Ermənistan mətbuatının

ənənəvi adı Masisdir. Tarixi mənbələrə əsasən “Ararat” qədim Urartu dövlətinə aid







yazdığına görə, parlamentdə “Şərəfim var” partiyasının deputatı Baş nazirə etimadsızlıq bəyanatı ilə çıxış edib. Nikol Paşinyan milli ideologiyanı və milli kimliyi məhv etməkdə günahlandırılır. Müxalifət düşərgəsi iddia edir ki, bu gedişlə tarixi simvolları arxivlərə göndərən hakimiyyət “Ermənistan” adından da imtina edə bilər.

Bəs hakimiyyətin arqumenti nədən ibarətdir? Bu mövzuda rəy bildirən ekspertlər məlum qərarı Ermənistan - Türkiyə münasibətlərinin normallaşması kontekstində dəyərləndirirlər. Son vaxtlarda normallaşma prosesində önəmli addımlar

olan bir anlayışdır, “Masis” isə iran mənşəli sözlərdən qaynaqlanır. Buradan o qənaət hasil olur ki, nə “Masis”, nə də “Ararat” adlarının erməni tarixinə və dilinə hər hansı bir aidiyyatı yoxdur. Erməni miflərini əridən ən böyük reallıq isə Ağrı

atılır,
o cümlədən ötən əsrin

dağının Türkiyənin ərazisində yerləşməsidir.

dən
möhürlərdəki məlum
dəyişikliklə bağlı
açıqlama verilib. Hökumətin sərhədi keçərkən pasportlara vurulan möhürlərdən Ağrı dağının təsvirinin çıxarılması qərarını qonşu ölkələrə təhlükəli mesajlar

### Ermənistan müxalifətinin etirazları və hakimiyyətin əsaslandırmaları

doxsanıncı illərindən bəri bağlı qalan sərhədlərin və kommunikasiyaların açılması ilə bağlı müzakirələr aparılır. Xüsusilə də Vaşinqton razılaşmalarından sonra hər iki tərəf normallaşma prosesi ilə bağlı müsbət siqnallar verirlər. Bütün bunların fonunda Ermənistanın dövlət gerbində, möhürlərində Türkiyəyə məxsus Ağrı dağının təsvirinin yer alması sadəcə mümkün deyil.

Yeri gəlmişkən, Ermənistanın iqtidar düşərgəsindən göndərməmək üçün verdiyi bildirilir. Ermənistan KİV-nin məlumatına görə, bunu ölkənin hakim “Vətəndaş müqaviləsi” partiyasının katibi Artur Ovannisyan bildirib.

O, bu qərarda heç bir qəsdin olmadığını vurğulayıb. Ağrı dağının təsvirinin Ermənistanın dövlət gerbindən çıxarılması məsələsinə toxunan A.Ovannisyan qeyd edib ki, hələlik belə müzakirələr aparılmır.

*Mübariz FEYİZLİ*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Üzeyirdən gələn səs!

## Xalqımızın yaddaşında yaşayan milli musiqimiz...

Musiqi hər bir xalqın mədəniyyətində təkcə sənət növü deyil, həm də milli yaddaşın, kimliyin və ruhun daşıyıcısıdır. Azərbaycan xalqı üçün isə musiqi yüzilliklərin dərinliyindən gələn, sazın səsi ilə ürəklərə hopan, muğamın ahəngi ilə düşüncələri qanadlandıran müqəddəs bir mirasdır. Sentyabrın 18-i dahi bəstəkar Üzeyir Hacıbəyovun doğum günü, həmçinin Azərbaycanda Milli Musiqi Günü kimi qeyd olunur. Bu gün təkcə bir bəstəkarın xatirəsi deyil, bir xalqın musiqi ilə var olmaq haqqında bayramıdır.

Azərbaycan musiqisi tarın, kamançanın, balabanın ahəngində əsrlərlə yoğrulan bir tale dastanıdır. Muğamımızın hər bir səfi qəmlə gülüşün, ayrılıqla qovuşmanın və bir xalqın illər boyu çəkdiyi ağrıların səsidir. Musiqi ilə sevinmiş, musiqi ilə yas tutmuşuq. Toyda da, döyüşdə də, ayrılıqda da, qələbədə də bir melodiya dilimizdən düşməyib.

Bütün bu musiqi sərvətinin zirvəsində Üzeyir Hacıbəyov dayanır. O, "Koroğlu" kimi bir qəhrəmanlıq simfoniyası yaratdı, "Leyli və Məcnun" kimi bir eşq dastanını səhnəyə daşıdı. Onun əsərlərində biz varıq - keçmişimiz, bu günümüz, gələcəyimiz. Üzeyir bəyin notları bu torpağın ruhuna hopub, sanki Xəzərin dalğaları ilə ahəngdardır, Qarabağın dağları ilə səsləşir.

Milli Musiqi Günü həm də Azərbaycan musiqisinin digər korifeylərinin - Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Arif Məlikovun və bir çoxlarının yaratdıqları zəngin irsin təbliği üçün mühüm bir platformadır. Bu gün ölkənin müxtəlif guşələrində konsertlər keçirilir, musiqi məktəblərində tədbirlər təşkil olunur, gənc ifaçılar klassik əsərləri səsləndirməklə ustad sənətkarlara ehtiramlarını bildirirlər.

Bütün bunlarla yanaşı, Milli Musiqi Günü təkcə keçmişə boylanmaq deyil, həm də gələcəyə baxmaq fürsətidir. Gənc nəslin musiqiyə olan marağını artırmaq, milli musiqini müasir üslubda təqdim etmək və dünyaya tanıtmaq bu günün qarşıya qoyduğu əsas məqsədlərdəndir. Bu gün dövlət səviyyəsində milli mədəniyyətə, xüsusilə də musiqiyə böyük dəyər verilir. Azərbaycan musiqisi təkcə tarixi keçmişə söykənmir, həm də dövlətin diqqəti sayəsində müasir dövrdə öz inkişafını davam etdirir. Dövlətimiz musiqimizi qoruyur, inkişaf etdirir və gələcək nəsillərə ötürmək üçün əlindən gələni edir.

Nə qədər ki, muğam oxunur, tar səslənir, nə qədər ki, bir uşaq fortepianoda Üzeyir bəyin əsərlərini ifa edir, deməli, milli musiqimiz yaşayır. Milli Musiqi Günü bizi sadəcə musiqiyə deyil, özümüzə qaytarır. Kim olduğumuzu, haradan gəldiyimizi, necə direniş göstərdiyimizi xatırladır.

Musiqimiz susmur, çünki xalqın özü danışır bu səsdə. Bu gün başımızı bir az da dik tuturuq. Çünki musiqimiz yaşayır, yenilənir, dünyanı dolaşır. Gənc bəstəkarlar, muğam ifaçıları, caz ustaları Azərbaycan adını not-not, səhnə-səhnə tanıdır.

*Yeganə BAYRAMOVA*

# Təmiz su, təmiz həyat...

**Su həyatın özü, nəfəsimiz, sağlamlığımız, gələcəyimizdir. Çox vaxt onu sadəcə bir ehtiyac kimi qəbul edirik. Ancaq bir anlıq təsəvvür edək ki, bir gün su damlası yox olacaq, axan çaylar, dənizlər quru qalacaq. Bu, qorxulu bir gələcəkdən başqa, həm də real təhlükədir. Dünyamızda su ehtiyatları getdikcə azalır, çirklənir, həyatımızın ən qiymətli sərvəti təhlükə altında olur. Buna görə də suyun davamlı olaraq monitorinqi, yəni keyfiyyətinin və miqdarının yoxlanılması vacib bir zərurətə çevrilib.**

## Su monitorinqi nədir və niyə vacibdir?

Su monitorinqi çaylar, göllər, yeraltı sular və hətta içməli su mənbələrinin keyfiyyətini və tərkibini sistemli şəkildə izləməkdir. Bu proses kimyəvi, bioloji və fiziki parametrlərin ölçülməsini əhatə edir. Məqsəd isə su ekosistemlərinin sağlamlığını qorumaq, insan sağlamlığını təmin etmək və sənaye, kənd təsərrüfatı kimi sahələrdə suyun təhlükəsiz istifadəsini təmin etməkdir.

Hazırda dünya əhalisinin əksəriyyəti təmiz və təhlükəsiz suya çıxışda ciddi problemlərlə üzləşir. Su çirkləndikcə müxtəlif xəstəliklər yayılır, ekosistemlər pozulur, iqtisadi itkilər artır. Məhz buna görə su monitorinqi ekologiya, səhiyyə və iqtisadiyyatın kəsişdiyi ən önəmli sahələrdən biridir.

## Texnologiya su xidmətində...

Ənənəvi üsullarla suyun keyfiyyətinin yoxlanılması zaman və insan resursu tələb edir. Lakin müasir texnologiyalar - sensorlar, uzaqdan zondlama, real vaxtda məlumat toplayan sistemlər su monitorinqini daha effektiv və dəqiq edir. Məsələn, ağıllı sensorlar sayəsində çayların suyu yoxlanılır, çirklənmə aşkar olunduğu halda dərhal tədbir görülür.

## Su monitorinqinin gələcəyi

Qlobal istiləşmə, sənayeləşmə və əhali artımı ilə əlaqədar su ehtiyatları üzərində təzyiq getdikcə artır. Bu səbəbdən, su monitorinq sistemlərinin təkmilləşdirilməsi həm dövlət, həm də qeyri-hökumət təşkilatlarının prioritetlərindən biri olmalıdır. Yeni texnologiyaların tətbiqi, vətəndaşların maarifləndirilməsi və beynəlxalq əməkdaşlıq su resurslarının davamlı idarə olunmasında açar rol oynayır.




Qeyd edək ki, 18 sentyabr Ümumdünya Su Monitorinqi Günüdür. Bu gün Amerika Təmiz Su Fondu tərəfindən su obyektlərinin çirklənməsi haqqında dünya ictimaiyyətini məlumatlandırmaq məqsədilə 2003-cü ildə təsis edilib. Həmin gün dünyanın bir çox ölkəsində qeyd edilir. Ənənəvi olaraq iştirakçı ölkələrin su obyektlərindən nümunələr götürülüb yoxlanılır. Məktəblilər, tələbələr suyun keyfiyyət parametrlərini təyin edərək Ümumdünya Su Monitorinqi Gününün rəsmi saytında paylaşırlar. Monitorinq nəticələrinin paylaşılması hər kəsin diqqətini suyun keyfiyyət göstəricilərinə yönəldir.

Su monitorinqi yalnız bir texniki prosedur deyil, gələcəyimizi qoruyan bir "silah"dır. Hər kəsin təmiz və sağlam suya sahib olması üçün bu prosesə ciddi yanaşmalıyıq. Çünki su həyatdır, yaşamaq haqqıdır, sağlamlığımızdır...

*Yeganə BAYRAMOVA*

*İdman*

# "Qarabağ" Çempionlar Liqasının əsas mərhələsinə tarixi qələbə ilə başladı



UEFA Çempionlar Liqasında əsas mərhələyə start verilib.

Azərbaycanın turnirdəki yeganə təmsilçisi "Qarabağ" da əsas mərhələdə mübarizəyə başlayıb.

Son ölkə çempionu ilk sınağına Portuqaliyada çıxıb. İkinci dəfə turnirin əsas mərhələsinə vəsiqə qazanan Ağdam təmsilçisi Lissabonda "Benfika"nın qonağı olub. "Da Luş" stadionda keçirilən görüş komandamızın əzmkar qələbəsi ilə başa çatıb - 3:2.

Oyuna inamsız başlayan "Qarabağ" 6-cı və 16-cı dəqiqələrdə buraxılan qollarla hesabda 2 top fərqi ilə geri düşüb. Buna baxmayaraq, ruhdan düşməyən Azərbaycan çempionu 30-cu dəqiqədə Leandro Andradenin qolu ilə hesab arasındakı fərqi azaldıb. İlk hissə rəqibin 2:1 hesablı üstünlüyü ilə yekunlaşıb. İkinci yarıya əla start verən ağdamlılar yeni transferi Kamilo Duranın dəqiq zərbəsi ilə tarazlığı bərpa edib. Matçda son nöqtəni isə 86-cı dəqiqədə Aleksey Kaşuk qoyub. Bununla da "Qarabağ" Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanıb.



Qeyd edək ki, "Qarabağ" Liqa mərhələsində növbəti oyununu oktyabrın 1-də Bakıda Danimarkanın "Kopenhagen" komandasına qarşı keçirəcək.

"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov Çempionlar Liqasının əsas mərhələsində Portuqaliyada "Benfika"ya 3:2 hesabı ilə qalib gəldikləri ilk tur oyunundan sonra keçirilən mətbuat konfransında qalib gəldikləri matçı belə şərh edib: "Elə bir oyun idi ki, məğlub da ola bilərdik. Çünki üstünlük rəqibin tərəfində idi. Hətta matçın əvvəllərində 2 top fərqi ilə geriyə düşdük. Oyunu çevirmək heç də asan görünmürdü. Amma futbolçularda inam, sınmamaq, oyundan qopmamaq və vurduğumuz ilk qol bizə qalib gəlməyə kömək etdi. Bu o demək deyil ki, qələbə qazandıqsa, "Benfika" bizdən zəif idi. Qətiyyən elə deyil. Rəqib çox ağıllı futbol oynayan kollektivdir. Oyundan öncə demişdim ki, futbolçularım bu gün daha çox əziyyət çəkəcək və daha istəkli olacaqlar. Şükürlər olsun ki, çox böyük qələbə əldə etdik. Bu, Azərbaycan futbolu tarixində Çempionlar Liqasında ilk qalibiyyətdir".

O, tarixi qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib: "Futbol elə bir səviyyəyə gəlib çıxıb ki, asan heç nə yoxdur. İlk dəqiqədən oyunçularıma dedim ki, Çempionlar Liqası matçıdır, bundan ləzzət almaq lazımdır. Onlara söylədim ki, səhvlər olacaq, çünki qarşımızdakı güclü komandadır. Öz oyunumuzdan əl çəkməkdik. Risklərə getmək lazım idi. Sadə qollar da buraxa bilərdik. Asan qələbə olmadı. Bu gecə tarixi zəfər bizim qismətimizə yazılmışdı".



Qurban Qurbanov UEFA Çempionlar Liqasının əsas mərhələsinin ilk turunda Portuqaliyada "Benfika" üzərində qazanılan 3:2 hesablı tarixə qələbəyə görə xoşbəxt olduğunu bildirib: "Futbolçularımla qürur duyuram. Bu zəfər oyunçulara stimul verəcək".

Mütəxəssis matçla bağlı da danışıb: "İlk dəqiqələrdə bir az gərginlik var idi. Lakin bunu adlaya bildik. Fasilədə uşaqlara dedim ki, ruhdan düşmək lazım deyil. Rəqiblər hər zaman bizə fərqli yanaşırlar. Bundan sonra da ciddi yanaşacaqlar".

Baş məşqçi növbəti matçlar barədə indidən danışmağın tez olduğunu söyləyib: "Ötən mövsüm Avropa Liqasındakı oyunlarımıza baxsaq, daha çox xal qazana bilərdik. Mən hər zaman futbolçularıma deyirdim ki, istənilən nəticəni əldə etmək olar. Bunun üçün inamlı olmaq lazımdır. Çalışacağıq ki, qarşıdakı matçlarda da uğurlu nəticələr əldə edək".


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5036**
**Sifariş: 1909**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova